EUROPEAN QUALIFIERS



# OYUN PROQRAMI

## Azərbaycan
## Fransa

16.11.2025 | Tofiq Bəhramov adına Respublika Stadionu

SOCAR Bank Respublika XIRDALAN 0.0 PAŞA Sığorta DANILOV BAKU
AQUAVITA PUMA MƏLHƏM Beynəlxalq Hospital misli BONA DEA Hospital MARIO RUSSO silkway west airlines




# WELCOME ALL

**Sharing the love of the game across generations**

#FOOTBALL

UEFA

OYUN PROQRAMI
MATCHDAY PROGRAMME

# BU BURAXILIŞDA


4
FRANSA MİLLİ KOMANDASI







20
ARALARINDAKI OYUNLAR HAQQINDA MƏLUMAT

28
AZƏRBAYCAN MİLLİ KOMANDASI





6 FRANSA MİLLİ KOMANDASININ BAŞ MƏŞQÇİSİ

Didye Deşam öz dövrünün tanınmış futbolçularından olub. Təsadüfi deyil ki, "Marsel", "Bordo", ...

10 FRANSA FUTBOLUN YARANDIĞI İL

Müasir futbol Fransaya əsasən İngiltərədən keçib. XIX əsrin ortalarında ingilis ...

22 MARAQLI FAKT

Azərbaycan çempionatları tarixinin ilk fransalı futbolçusu Edmond Ntiamoa ..

26 STADİON HAQQINDA

Azərbaycan – Fransa oyununun keçiriləcəyi Tofiq Bəhramov adına Respublika ...

36 AZƏRBAYCANDA FUTBOLUN YARANDIĞI İL

Azərbaycanda ilk futbol komandaları 1905-ci ildə yaradılıb. Həmin dövrdə ingilislərin ...



**Şəkillər:** AFFA-nın fotobazası, "Google Photos", gettyimages.com


## BİZ **BİRLİKDƏ** GÜCLÜYÜK!


AZƏRBAYCAN, BAKI AZ 1025,
8 NOYABR PROSPEKTI, 163

Tel: +99412 404 2777
Faks: +99412 404 2772

info@affa.az
www.affa.az

France national team



# FRANSA MİLLİ KOMANDASI


ISLANDE
FRANCE
13 OCTOBRE 2025

# DİDYE DEŞAM

Didye Deşam öz dövrünün tanınmış futbolçularından olub. Təsadüfi deyil ki, "Marsel", "Bordo", "Yuventus", "Çelsi" və "Valensiya" kimi klubların formasını geyinib. 1989-2000-ci illərdə Fransa millisinin şərəfini qoruyan Deşam uzun müddət komandaya kapitanlıq edib, 103 matçda meydana çıxıb. 3 dəfə Avropa, bir dəfə dünya çempionatında iştirak edən sabiq dayaq yarımmüdafiəçisi DÇ-1998 və AVRO-2000-in qalibi olub. Fransa və İtaliyada ölkə çempionu olmaqla yanaşı, karyerası ərzində 2 dəfə UEFA Çempionlar Liqasının kubokunu başı üzərinə qaldırıb. 1993-cü ildə ÇL-i qazanan ilk Fransa klubu "Marsel"in formasını geyinən Deşam bu turnirin qalibi olan ən gənc kapitan kimi tarixə düşüb.

56 yaşlı mütəxəssis 2012-ci ilin yayından Fransa millisini çalışdırır. Ona qədər isə 10 il ərzində "Monako", "Yuventus" və "Marsel"ə rəhbərlik edib. Deşamın rəhbərliyi altında Fransa yığması 2014-cü ildə dünya çempionatının 1/4 finalına, iki il sonra isə Avropa çempionatının finalına qədər yüksəlib. Fransızlar 2018-ci ildə dünya çempionluğunu qazanıb, son mundialın finalında isə məğlub olublar. O, həm futbolçu, həm də məşqçi kimi dünya çempionu olan üçüncü şəxsdir. Fransa yığması 2020-2021 mövsümündə UEFA Millətlər Liqasının qalibi olub. Deşam 2018-ci ildə FIFA başda olmaqla bir çox futbol təşkilatları tərəfindən ilin ən yaxşı məşqçisi seçilib. O, DÇ-2026-dan sonra yığmadakı fəaliyyətini başa vuracağını açıqlayıb.



# DIDIER CLAUDE DESCHAMPS



Didier Deschamps is a French professional football manager and former player who has been managing the France national team since 2012. He played as a defensive midfielder for several clubs, in France, Italy, England and Spain, namely Marseille, Juventus, Chelsea and Valencia, as well as Nantes and Bordeaux. As a French international in 1989-2000, Deschamps was capped on 103 occasions and took part at three UEFA European Championships and one FIFA World Cup, captaining his nation to victories in the 1998 World Cup and Euro 2000. In addition to being the national champion in France and Italy, he also lifted the UEFA Champions League trophy twice during his career. Deschamps was part of the Marseille squad that became the first French club to win the UEFA Champions League; with the Champions League victory, Deschamps became the youngest captain ever to lead his team to win the title. With Juventus he played three Champions League finals in a row from 1996 to 1998, winning the title in 1996. With the Turin side, he also won the UEFA Super Cup and the Intercontinental Cup, as well as three Serie A titles, among other trophies. With Chelsea, he won the 1999–2000 FA Cup, and also reached another Champions League final with Valencia in 2001, before retiring later that season.

As a manager, Deschamps began his career with Monaco. During the 2006–07 season, he helped his former club Juventus win the Serie B title and return to Serie A. He subsequently managed another one of his former clubs, Marseille.

On 8 July 2012, Deschamps was named as the new manager of the France national team. He led the team to the quarter-finals of the 2014 FIFA World Cup, the final of UEFA Euro 2016, victory in the 2018 FIFA World Cup, and a back-to-back final appearance in the 2022 FIFA World Cup. Upon winning the World Cup in 2018, Deschamps became the third man to win the World Cup as both a player and a manager.

Didier Deschamps was named FIFA's The Best Men's Coach of the Year for 2018.

Deschamps announced that he will leave the national team after the 2026 World Cup.

# FRANSA MİLLİSİNİN HEYƏTİ

## QAPIÇILAR/GOALKEEPERS
Mayk Menyan
Luka Şevalve
Bris Samba

## MÜDAFİƏÇİLƏR/DEFENDERS
Luka Din
Malo Qyusto
Lukas Ernandes
Teo Ernandes
İbrahima Konate
Jül Kunde
Vilyam Saliba
Dayo Upamekano

## YARIMMÜDAFİƏÇİLƏR/MIDFIELDERS
Eduardo Kamavinqa
Nqolo Kante
Manu Kone
Maykl Olise
Uorren Zair-Emeri

## HÜCUMÇULAR/FORWARDS
Manes Akliuş
Bradli Barkola
Rayan Şerki
Uqo Ekitike
Randal Kolo Muani
Jan-Filipp Mateta
Kilian Mbappe
Kristofer Nkunku

# France national team squad




*MÜSTƏQİL TƏDQİQAT MƏLUMATLARINA ƏSASLANMIŞDIR
ALKOQOL: 0.0%. AQTA, QEYDİYYAT № /TARİXİ: 1808110029 / 11.08.2018. 18+



# FRANSADA FUTBOLUN YARANDIĞI İL

## History of football in France

Müasir futbol Fransaya əsasən İngiltərədən keçib. XIX əsrin ortalarında ingilis tələbələri və iş adamları Fransada futbol oynamağa başlayıblar. 1863-cü ildə İngiltərə Futbol Assosiasiyasının yaradılmasından sonra oyun qaydaları standartlaşıb və bu qaydalar Fransaya da gətirilib. Fransada ilk futbol klubları 1870-1880-ci illərdə yaranıb. Onlardan biri də 1872-ci ildə təsis edilən "Havr" olub. "Havr" Fransanın ən köklü futbol klubu sayılır. 1894-cü ildə Parisdə ilk milli çempionat təşkil olunub. Futbolun populyarlaşması ilə ölkədə getdikcə daha çox klub və liqalar qurulub. 1919-cu ildə isə Fransa Futbol Federasiyası (FFF) yaradılıb və ölkədə futbolun rəsmi idarəedici orqanına çevrilib. Fransa Futbol Federasiyası həm FIFA, həm də UEFA-nın qurucu üzvlərindəndir.

Modern football came to France mainly from England. In the mid-19th century, English students and businessmen began to play football in France. After the establishment of the English Football Association in 1863, the rules of the game were standardized and these rules were also brought to France. The first football clubs in France were founded in the 1870s and 1880s. One of them was Le Havre, founded in 1872. Le Havre is considered the oldest football club in France. In 1894, the first national championship was organized in Paris. As football became more popular, more and more clubs and leagues were established in the country.

Football in France, gaining a formal structure with the establishment of the French Football Federation (FFF) in 1919 and a professional league, Ligue 1, in 1932. The national team played its first match in 1904, The French Football Federation is a founding member of both FIFA and UEFA.

PAŞA Sığorta

Rahatlığınıza Zəmanət

# FRANSA MİLLİSİNİN REKORDÇULARI

## Player records of the France national team

Fransa millisinin ilk beynəlxalq oyunu 1 may 1904-cü ildə Belçikaya qarşı keçirilib. Brüsseldəki matçda 3:3 hesablı heç-heçə qeydə alınıb. Fransa millisinin ən böyükhesablı qələbəsi 14:0 olub. Qarşılaşma 2023-cü il noyabrın 18-də Nitsada baş tutub. Fransa tarixinin ən böyükhesablı məğlubiyyəti isə 1:17 olub. Fransızlar 1908-ci il oktyabrın 22-də Londonda Danimarkaya belə böyük fərqlə uduzublar.

The France national football team was created in 1904. The team competed in its first official international match on 1 May 1904 against Belgium in Brussels, ending in a 3–3 draw. France beat Gibraltar 14-0 and it's the biggest win in their national team history. The match took place in Nice on November 18, 2023.
The biggest France defeat was the game against Denmark on October 22, 1908 in London, where the Danish team defeated France 17 -1.



Danimarka
Fransa
22.10.1908
VS

Denmark
France
22.10.1908
VS

# ƏN ÇOX OYUN KEÇİRƏN 5 FUTBOLÇU / *5 MOST APPEARANCES*

**1. Uqo Lyoris**
145 oyun (2008-2022)

**2. Lilian Türam**
142 oyun (1994-2008)

**3. Olivye Jiru**
137 oyun (2011-2024)

**4. Antuan Qrizmann**
137 oyun (2014-2024)

**5. Tyerri Anri**
123 oyun (1997-2010)

---

**1. Hugo Lloris**
145 games (2008-2022)

**2. Lilian Thuram**
142 games (1994-2008)

**3. Olivier Giroud**
137 games (2011-2024)

**4.Antoine Griezmann**
137 games (2014-2024)

**5. Thierry Henry**
123 games (1997-2010)

# ƏN ÇOX QOL VURAN 5 FUTBOLÇU / *5 TOP SCORERS*

**1. Olivye Jiru**
57 qol (2011–2024)

**2. Kilian Mbappe**
52 qol (2017–...)

**3. Tyerri Anri**
51 qol (1997–2010)

**4. Antuan Qrizmann**
44 qol (2014-2024)

**5. Mişel Platini**
41 qol (1976–1987)

---

**1. Olivier Giroud**
57 goals (2011–2024)

**2. Kylian Mbappe**
52 goals (2017–...)

**3. Thierry Henry**
51 goals (1997–2010)

**4. Antoine Griezmann**
44 goals (2014-2024)

**5. Michel Platini**
41 goals (1976–1987)



# FRANSA MİLLİSİNİN BEYNƏLXALQ YARIŞLARDA UĞURLARI

## SUCCESSES OF THE FRANCE NATIONAL TEAM DURING THE INTERNATIONAL COMPETITIONS

# FRANCE

Fransa millisi 1904-cü ildə yaradılıb və həmin il ilk beynəlxalq oyununu keçirib. Fransızlar 1930-cu ildə Uruqvayda təşkil olunan ilk dünya çempionatına qatılan Avropanın dörd ölkəsindən biri olub. Komanda Raymon Kopa və Just Fontenin rəhbərliyi altında DÇ-1958-in bürünc mükafatına yiyələnib. DÇ-1986-da da eyni nailiyyəti təkrarlayan fransızlar ilk böyük titullarını 1984-cü ildə qazanıblar. Komanda öz ölkəsində keçirilən qitə birinciliyinin qalibi olub.

Fransa millisinin qızıl dövrü XX əsrin sonlarına, XXI əsrin əvvəllərinə təsadüf edib. Deşamlı, Zidanlı yığma 1998-ci ildə evdəki dünya çempionatının kubokunu qazanıb. Bu heyət iki il sonra Avropa çempionluğunu da heç kimə verməyib.

Son 10 ilin Fransası da dünyanın ən güclülərindən sayılır. Komanda ardıcıl olaraq AVRO-2016-nın finalçısı, DÇ-2018-in qalibi, Millətlər Liqası - 2020/2021-in qalibi, DÇ-2022-nin finalçısı, AVRO-2024-ün yarımfinalçısı olub.

Bundan başqa, Fransa millisi bir dəfə Yay Olimpiya Oyunlarının (1984), bir dəfə KONMEBOL-UEFA Çempionlar Kubokunu (1985), iki dəfə isə FIFA Konfederasiyalar Kubokunu (2001, 2003) qazanıb.



Dünya çempionatı 1998
World cup 1998

Founded in 1904, the France national football team played the first official international match that year. France were one of four European teams to participate in the first World Cup in 1930. The team led by Raymond Kopa and Just Fontaine finished in third place at the 1958 World Cup. France experienced much of its success in three different eras: in the 1980s, the late 1990s to early 2000s, and the late 2010s to early 2020s.




Dünya çempionatı 2018
World cup 2018

In 1984, under the leadership of the three-time Ballon d'Or winner Michel Platini, France won Euro 1984 (its first official title), a CONMEBOL–UEFA Cup (1985), and reached two World Cup semi-finals (1982 and 1986). During the captaincy of Didier Deschamps, with Zinedine Zidane being the star player, the team won the 1998 World Cup and Euro 2000.

France has also been one of the strongest teams in the world for the past 10 years. The team has been a finalist at UEFA EURO 2016, winner of the 2018 FIFA World Cup, winner of the 2020/2021 UEFA Nations League, finalist at the 2022 World Cup, and semi-finalist at UEFA EURO 2024. France won the Summer Olympics once (1984), the CONMEBOL-UEFA Champions Cup once (1985), and the FIFA Confederations Cup twice (2001, 2003).



# FRANSA MİLLİSİNİN

## SON 5 OYUNU

Last 5 matches of the France national team

| | | | | |
|---|---|---|---|---|
| 08.06.2025 | UEFA Millətlər Liqası, III yer uğrunda | Almaniya - Fransa | 0:2 | Ştutqart, Almaniya |
| 05.09.2025 | DÇ-2026, seçmə mərhələ | Ukrayna - Fransa | 0:2 | Vrotslav, Polşa |
| 09.09.2025 | DÇ-2026, seçmə mərhələ | Fransa - İslandiya | 2:1 | Paris, Fransa |
| 10.10.2025 | DÇ-2026, seçmə mərhələ | Fransa - Azərbaycan | 3:0 | Paris, Fransa |
| 13.10.2025 | DÇ-2026, seçmə mərhələ | İslandiya - Fransa | 2:2 | Reykyavik, İslandiya |

**HAZIRKI MÖVQEYİ:**
*1-Cİ YER*
**ƏN YAXŞI MÖVQEYİ:**
*1-Cİ YER (MAY 2001-Cİ İL - MAY 2002-Cİ İL, AVQUST-SENTYABR 2018-Cİ İL, SENTYABR 2025-Cİ İL)*
**ƏN ZƏİF MÖVQEYİ:**
*26-CI YER (SENTYABR 2010-CU İL)*

**CURRENT POSITION:**
*1TH PLACE*
**BEST POSITION:**
*1TH PLACE (MAY 2001 – MAY 2002, AUGUST–SEPTEMBER 2018, SEPTEMBER 2025)*
**LOWEST POSITION:**
*26TH (SEPTEMBER 2010)*

INSIDE FIFA


WORLD CUP™ FINAL

misli

# ARALARINDAKI OYUNLAR HAQQINDA MƏLUMAT

# INFORMATION ABOUT THE MATCHES HELD BETWEEN THE TEAMS

# OYUNLAR

G A M E S

Azərbaycan və Fransa millilәri UEFA-nın bayrağı altında rəsmi turnirlərdə iki dəfə üz-üzə gəliblər. Bu, müstəqilliyimizin ilk illərinə - millimizin qatıldığı birinci rəsmi turnirə təsadüf edib. Komandamız həmin vaxt rəqiblərini Trabzondakı "Hüseyin Avni Aker" stadionunda qəbul edirdi. Tariximizin ikinci rəsmi ev matçı AVRO-1996-nın seçmə mərhələsi çərçivəsində məhz Fransaya qarşı olub. 1994-cü il dekabrın 13-də Türkiyədə təşkil olunan görüşdə nominal qonaqlar 2:0 hesablı qələbə qazanıblar. 1995-ci il sentyabrın 6-da Oserdəki qarşılaşmada isə meydan sahibləri 10 cavabsız qolla qalib gəliblər.

---

The national teams of Azerbaijan and France have faced each other twice in official UEFA tournaments. This happened in the first years of independence in Azerbaijan - the first official tournament in which Azerbaijan national team participated. At that time, Azerbaijan A-team was hosting opponents at Hüseyin Avni Aker Stadium in Trabzon, Turkey. The second official home match of Azerbaijan was against France within the UEFA EURO-1996 qualifying round. France won the game 2-0 played in Turkey on December 13, 1994.  France won the game 10-0 in Auxerre on September 6, 1995.





## 1 AVRO-1996-nın seçma marhalasi / UEFA Euro 1996 qualifiers

• 13.12.1994

Azərbaycan – Fransa 0:2
("Hüseyin Avni Aker" stadionu, Trabzon)

Azerbaijan vs France 0-2
(Hüseyin Avni Aker stadium, Trabzon)

## 2 AVRO-1996-nın seçma marhalasi / UEFA Euro 1996 qualifiers

• 06.09.1995

Fransa - Azərbaycan 10:0
("Abbe-Deşam" stadionu, Oser)

France vs Azerbaijan 10-0
(Stade de l'Abbe-Deschamps, Auxerre)

# MARAQLI FAKT
# INTERESTING FACT

Azərbaycan çempionatları tarixinin ilk fransalı futbolçusu Edmond Ntiamoa olub. Qana əsilli sabiq hücumçu 2006-2007 və 2007-2008 mövsümlərində "Xəzər Lənkəran"ın formasını geyinib. Lənkəran təmsilçisi həmin mövsümü çempion kimi tamamlayıb. Ntiamoa Azərbaycan çempionluğunu qazanan ilk Fransa vətəndaşı kimi tarixə düşüb.

Həmin dönəmdən bəri Fransadan Azərbaycan Premyer Liqasına üz tutmuş saysız-hesabsız futbolçu olub. Hazırda 15 Fransa vətəndaşı Premyer Liqa komandalarımızın formasını geyinir. Bunlar Hamidu Keyta, Şarl Boli ("Araz-Naxçıvan"), İmani Barker ("Karvan-Yevlax"), Abdullah Zubir ("Qarabağ"), İbrahim Sanqare ("Qəbələ"), Sessi Dalmeyda, İmad Faraj ("Neftçi"), Akim Zedadka, Stiv Solvet, Zinedin Uld Xaled, Aron Maluda ("Sabah"), Rayan Senhadji, Aleksandr Ramalinqom ("Sumqayıt"), Ayron Qomis və Brahim Konatedir ("Zirə").

Həmçinin klublarımız da müxtəlif illərdə Fransa klubları ilə avrokuboklarda qarşılaşıblar.

The first French player in the history of the Azerbaijani championships was Edmond N'Tiamoah. The former Ghanaian striker signed a contract with FC Khazar Lankaran for the season 2006/2007 and 2007/2008. At the end of the season the team were champions in the 2006/2007 Azerbaijan Top League and were double winners as they lifted the 2006/2007 Azerbaijan Cup. N'Tiamoah went down in the history of football in Azerbaijan as the first French citizen to win the Azerbaijan championship. Since then, countless French players have played for the Azerbaijan Premier League. Currently, 15 French nationals play for Azerbaijan Premier League teams. These are Hamidou Keita, Charles Boly (Araz-Nakhchivan), Imani Barker (Karvan-Yevlax), Abdullah Zubir (Qarabag), Ibrahim Sangare (Gabala), Sessi D'Almeida, Imad Faraj (Neftchi), Akim Zedadka, Steve Solvet, Zinedine Ould Khaled, Aaron Malouda (Sabah), Rayan Senhadji, Alexandre Ramalingom (Sumgayit), Iron Gomis and Brahim Konaté (Zira).

# Qrup oyunlarının təqvimi

## The 2026 FIFA World Cup European Qualifiers Group D matches schedule

I tur — 5 sentyabr 2025 — Round I

| | | |
|---|---|---|
| İslandiya | 5:0 | Azərbaycan |

"Leyqartalsvötlyur" stadionu, Reykyavik

| | | |
|---|---|---|
| Ukrayna | 0:2 | Fransa |

"Tarçinski Arena", Vrotslav

II tur — 9 sentyabr 2025 — Round II

| | | |
|---|---|---|
| Azərbaycan | 1:1 | Ukrayna |

Tofiq Bəhramov adına Respublika Stadionu, Bakı

| | | |
|---|---|---|
| Fransa | 2:1 | İslandiya |

"Park De Prens" stadionu, Paris

III tur — 10 oktyabr 2025 — Round III

| | | |
|---|---|---|
| Fransa | 3:0 | Azərbaycan |

"Park De Prens" stadionu, Paris

| | | |
|---|---|---|
| İslandiya | 3:5 | Ukrayna |

"Leyqartalsvötlyur" stadionu, Reykyavik

IV tur — 13 oktyabr 2025 — Round IV

| | | |
|---|---|---|
| İslandiya | 2:2 | Fransa |

"Leyqartalsvötlyur" stadionu, Reykyavik

| | | |
|---|---|---|
| Ukrayna | 2:1 | Azərbaycan |

"Krakoviya" stadionu, Krakov

V tur — 13 noyabr 2025 — Round V

| | | |
|---|---|---|
| Azərbaycan | 21:00 | İslandiya |

"8-ci km qəsəbə stadionu", Bakı

| | | |
|---|---|---|
| Fransa | 23:45 | Ukrayna |

"Park De Prens" stadionu, Paris

VI tur — 16 noyabr 2025 — Round VI

| | | |
|---|---|---|
| Azərbaycan | 21:00 | Fransa |

Tofiq Bəhramov adına Respublika Stadionu, Bakı

| | | |
|---|---|---|
| Ukrayna | 21:00 | İslandiya |

Yozef Pilsudski adına stadion, Varşava


AFFA
MARIO RUSSO
Tailored for
Excellence
Official sponsor of the A National Team of Azerbaijan


LOMBARD LOTEREYASI
2 ədəd - BYD Destroyer avtomobili
4 ədəd - 20 qr qızıl külçə
10 ədəd - 10 qr qızıl külçə
24 ədəd - 5 qr qızıl külçə
QIZIL SEÇİM
Lotereya
01.10.2025 - 01.05.2026
tarixlərində keçirilir
Bank
Respublika
Bakı ş. Xaqani 21 / Bank 15.12.1992 tarixində Azərbaycan Milli Bankı tərəfindən verilmiş 83 saylı lisenziya əsasında fəaliyyət göstərir



# ABOUT THE STADIUM

# STADİON HAQQINDA

Azərbaycan – Fransa oyununun keçiriləcəyi Tofiq Bəhramov adına Respublika Stadionu ölkənin ən böyük ikinci arenasıdır. Milli komandamız əksər ev matçlarını məhz bu stadionda keçirir. Həmçinin "Qarabağ" klubu da avrokubok matçlarında rəqiblərini mərkəzi arenada qəbul edir.

Tofiq Bəhramov adına Respublika Stadionu 1951-ci ildə istifadəyə verilib. Tikintisinə 1939-cu ildə start verilsə də, II Dünya Müharibəsi ilə əlaqədar bir müddət işlər dayandırılıb. 1993-cü ildə stadiona həmin il vəfat edən dünya şöhrətli hakim Tofiq Bəhramovun adı verilib. Arena ilk dəfə 1996-cı ildə UEFA tərəfindən beynəlxalq oyunların keçirilməsi üçün lisenziya alıb. 2011-ci ildə yenidənqurma zamanı oturacaqların sayı 29.870-dən 31.200-ə qədər artırılıb. 2012-ci ildə bu stadionda FIFA U-17 qadınlararası dünya çempionatının yarımfinal və final oyunları keçirilib.



















The second largest arena in Azerbaijan the Republican Stadium named after Tofig Bahramov to hols the match Azerbaijan-France. It's a multi-purpose stadium has served as the home ground for the Azerbaijan national team. FC Qarabag also hosts their opponents within the UEFA European League at the Tofig Bahramov Stadium.

The Republican Stadium named after Tofig Bahramov was opened in 1951. Its construction began in 1939, but was suspended for a while due to World War II. In 1993, the stadium was named after famous football referee Tofig Bahramov, who died in the same year. The arena was first licensed by UEFA to host international matches in 1996. During a reconstruction process in 2011, the number of seats was increased from 29,870 to 31,200. In 2012, the stadium was one of the venues for the group of the 2012 FIFA U-17 Women's World Cup. One Group A match, a semi-final and the final were played there.











2011-ci ildə yenidənqurma zamanı oturacaqların sayı 29.870-dən 31.200-ə qədər artırılıb. 2012-ci ildə bu stadionda FIFA U-17 qadınlararası dünya çempionatının yarımfinal və final oyunları keçirilib.

During the 2011 renovation, the capacity was increased from 29,870 to 31,200. In 2012, the stadium hosted the semi-final and final games of the FIFA U-17 Women's World Cup.









Azerbaijan
national
team






# AZƏRBAYCAN MİLLİ KOMANDASI


FIFA
AFFA


AQUAVITA
Qafqaz dağlarından əfsanəvi su!
AQUAVITA
QAZSIZ
1.5L
Qafqaz Dağlarından Əfsanəvi Su

liv BONA DEA
HOSPITAL

liv BONA DEA
HOSPITAL

liv BONA DEA
HOSPITAL

# AYXAN ABBASOV

Azərbaycan millisinin yeni baş məşqçisi Ayxan Abbasov artıq 10 ildir məşqçiliklə məşğuldur. 16 illik futbolçu karyerası ərzində müxtəlif klublarda, eləcə də, U-17, U-19 və U-21 yığmalarımızda çıxış etmiş 44 yaşlı mütəxəssis 2015-ci ildə məşqçiliyə başlayıb. "Zirə"də köməkçi məşqçi kimi fəaliyyətə başlayan Abbasov 2016/2017 mövsümünün ikinci yarısında baş məşqçi kimi debüt edib. "Zirə" onun rəhbərliyi altında mövsümü 4-cü pillədə başa vurub. Növbəti mövsümdə də qəsəbə təmsilçisi eyni nəticəni təkrarlayıb.

2018/2019 mövsümünə də "Zirə"də başlayan Ayxan Abbasov cəmi 2 turdan sonra komandadan ayrılıb və mövsümün gedişində "Sumqayıt"ın sükanı arxasına keçib. Çalışdırıcı ilk mövsümündə "gənclik şəhəri" təmsilçisini Azərbaycan Kubokunun finalına daşıyıb. Onun rəhbərliyi altında 2019/2020 mövsümündə Premyer Liqada 4-cü yeri tutan "Sumqayıt" tarixində ilk dəfə avrokuboklarda iştirak hüququ qazanıb. Növbəti mövsüm isə "kimyaçılar" ölkə çempionatının bürünc mükafatçısı olmaqla yanaşı, kubokda da finala qədər irəliləməyi bacarıb.

"Sumqayıt"da 3 illik uğurlu fəaliyyətin ardından 2021-ci ilin sonunda komandadan ayrılan Ayxan Abbasov növbəti iki mövsümü "Turan Tovuz"da keçirib. Mütəxəssis ötən ildən Premyer Liqanın digər iştirakçısı "Şamaxı"nı çalışdırır. O, eyni zamanda bu ilin martından sentyabrına qədər U-21 millimizə rəhbərlik edib.

Dünya çempionatının seçmə mərhələsi çərçivəsində İslandiya yığmasına qarşı keçirilən ilk oyundan sonra Fernandu Santuşla yollarını ayıran milli komandamız dörd gün sonra Bakıda Ukrayna önünə məhz Ayxan Abbasovun rəhbərliyi altında çıxıb və güclü rəqibi ilə heç-heçə edib – 1:1.



# AYKHAN ABBASOV

Aykhan Abbasov, head coach of Azerbaijan national team, has been coaching for 10 years. The 44-year-old, who played for different clubs, as well Azerbaijan Under-17 team, Azerbaijan Under -19 team and Azerbaijan Under -21 team during his 16-year player career, began coaching in 2015. Abbasov started his coaching career as an assistant coach at FC Zira and made his debut as head coach in the second half of the season 2016/2017. FC Zira finished the season fourth under his managing. FC Zira repeated the same result in the next season.

Aykhan Abbasov started the season 2018/2019 with FC Zira but left the club after only 2 weeks for FC Sumgayit. In his first season with FC Sumgayit, Abbasov led the club to Azerbaijan Cup Final. FC Sumgayit finished fourth in Azerbaijan Premier League in the season 2019/2020 and earned the right to participate in European competitions for the first time in their history. In the season 2020/2021, FC Sumgayit earned bronze medals of Azerbaijan championship as well advanced to Azerbaijan Cup Finals.



After three years of successful activity in FC Sumgayit, Aykhan Abbasov left the team at the end of 2021 and spent the next two seasons with FC Turan Tovuz.

Aykhan Abbasov has been coaching Shamakhi, another participant of Azerbaijan Premier League, since last year. In 2025 Abbasov was appointed as head coach of Azerbaijan Under-21 team from March to September.

After parting ways with Fernando Santos after the first match against Iceland within the 2026 World Cup qualification, Azerbaijan A-team, managing by Aykhan Abbasov, played a draw with Ukraine 1-1 in Baku four days later.

silkway

west airlines

MƏLHƏM
BEYNƏLXALQ HOSPİTAL




# MƏLHƏMLƏ SAĞLAM YAŞA!

C.Naxçıvanski küç. 433 Bakı, 1099
803 / (+994) 51 201 71 01
melhemhospital.com

# AZƏRBAYCANDA FUTBOLUN YARANDIĞI İL

# 1905

## THE YEAR FOOTBALL WAS ESTABLISHED IN AZERBAIJAN



*1998 FIFA dünya çempionatı (seçmə mərhələ)*

*FIFA World Cup 1998 (qualifying round)*



Azərbaycanda ilk futbol komandaları 1905-ci ildə yaradılıb. Həmin dövrdə ingilislərin neft yataqlarına meyl etmələri futbolun inkişafına töhfəsini verib. Futbolun vətəni İngiltərə olduğundan, onların Bakıya gəlmələri yerli əhali arasında da bu idman növünü populyarlaşdırıb. Bakıda ilk futbol komandasının da adı "Britaniya klubu" olub. Bakının iri neft şirkətlərini təmsil edən komandalar arasında 1911-ci ildə Bakıda keçirilən birinci rəsmi çempionatı məhz "Britaniya klubu" qazanıb.

Adıçəkilən komanda ilk beynəlxalq oyununu 1912-ci ildə Gürcüstanda yerli "Sokol" kollektivinə qarşı keçirib və 4:2 hesablı qələbə qazanıb.
1914-cü ildə Bakı Futbol İttifaqı (BFİ) yaransa da, bu təşkilatın ömrü çox sürməyib. 20 komandanı özündə birləşdirən BFİ 1917-ci ildə süquta uğrayıb. 1920-ci ildə futbol yenidən Bakıya qayıdıb və ilk şəhər birinciliyinin qalibi "Sokol" olub. 1926-cı ildə Gürcüstanda təşkil edilən ilk Zaqafqaziya çempionatının qalibi Azərbaycan təmsilçisi "Proqress" olub.

The first football teams in Azerbaijan were created in 1905. At that time, the craving of the English people for oil fields contributed to the development of football. Since England is the birthplace of football, their arrival in Baku made this sport popular among the local population. The first football team in Baku was called the "British Club". Among the teams representing the largest oil companies in Baku, the first official championship, held in Baku in 1911, was won by the "British Club". This team played its first international game in 1912 in Georgia against the local team "Sokol" and won with a score of 4:2..

Although the Baku Football Union (BFU) was founded in 1914, the life of this organization did not last long. The BFU, which included 20 teams, disbanded in 1917. In 1920, football returned to Baku and the first city championship was won by "Sokol". The winner of the first Transcaucasian championship, organized in Georgia in 1926, was a representative of the Azerbaijani "Progress".

AFFA









PUMA®

SOCAR

# AZƏRBAYCAN MİLLİSİNİN REKORDÇULARI

## Record holders of the Azerbaijan national team

Azərbaycan millisinin ilk beynəlxalq oyunu 1992-ci il sentyabrın 17-də Gürcüstan seçməsinə qarşı olub. Gürcaanidə keçirilən görüşdə ev sahibləri 6:3 hesablı qələbə qazanıblar. Komandamızın ən böyükhesablı qələbəsi 4 top fərqi ilə olub. Millimiz 1999-cu ildə Lixtenşteynə 4:0, 2017-ci ildə isə San Marinoya 5:1 hesabı ilə qalib gəlib. Komandamız ən böyükhesablı məğlubiyyətini 1995-ci ildə səfərdə Fransadan alıb - 0:10.

The first international game of the Azerbaijani national team took place on September 17, 1992 against Georgia. In the match held in Georgia, the home team won with a score of 6-3. The Azerbaijani team's biggest victory was with a difference of 4 goals. Azerbaijan beat Liechtenstein 4-0 in 1999 and San Marino 5-1 in 2017. Azerbaijan suffered the biggest defeat in 1995 in an away match against France – 0-10.

Azərbaycan - San Marino, 4 Sentyabr 2017 5-1



## ƏN ÇOX OYUN KEÇİRƏN 5 FUTBOLÇU / *5 MOST APPEARANCES*



**RƏŞAD SADIQOV**

111 oyun/games
2001-2017



**MAKSİM MEDVEDEV**

81 oyun/games
2009-2022



**ASLAN KƏRİMOV**

80 oyun/games
1994-2008



**KAMRAN AĞAYEV**

79 oyun/games
2008-2018



**BƏDAVİ HÜSEYNOV**

78 oyun/games
2012-...

## ƏN ÇOX QOL VURAN 5 FUTBOLÇU / *5 TOP SCORERS*



**EMİN MAHMUDOV**

15 qol/goals
2016-...



**QURBAN QURBANOV**

14 qol/goals
1992-2005



**RAMİL ŞEYDAYEV**

10 qol/goals
2016-...



**VAQİF CAVADOV**

9 qol/goals
2006-2014



**DMİTRİ NAZAROV**

8 qol/goals
2014-2022

DANILOV

BAKU

# AZƏRBAYCAN MİLLİSİNİN BEYNƏLXALQ YARIŞLARDA QƏLƏBƏLƏRİ

## SUCCESSES OF THE AZERBAIJAN NATIONAL TEAM DURING THE INTERNATIONAL COMPETITIONS

# Millinin beynəlxalq oyunlarda qələbələri

Dünya və Avropa çempionatlarının seçmə mərhələlərində, UEFA Millətlər Liqasında qazanılan qələbələr

# Victories of the national team in international matches

The victories achieved in the qualifying rounds of World and European championships, in the UEFA National League

**31.08.1996. DÇ-1998**
Azərbaycan - İsveçrə - 1:0 (Bakı)

**05.06.1999. AÇ-2000**
Azərbaycan - Lixtenşteyn - 4:0 (Bakı)

**05.06.2001. DÇ-2002**
Azərbaycan - Slovakiya - 2:0 (Bakı)

**11.06.2003. AÇ-2004**
Azərbaycan - Serbiya və Montenegro - 2:1 (Bakı)

**28.03.2007. AÇ-2008**
Azərbaycan - Finlandiya - 1:0 (Bakı)

**10.10.2009. DÇ-2010**
Lixtenşteyn - Azərbaycan - 0:2 (Vaduts)

**12.10.2010. AÇ-2012**
Azərbaycan - Türkiyə - 1:0 (Bakı)

**06.09.2011. AÇ-2012**
Azərbaycan - Qazaxıstan - 3:2 (Bakı)

**11.10.2013. DÇ-2014**
Azərbaycan - Şimali İrlandiya - 2:0 (Bakı)

**28.03.2015. AÇ-2016**
Azərbaycan - Malta - 2:0 (Bakı)

**04.09.2016. DÇ-2018**
San Marino - Azərbaycan - 0:1 (Serravalle)

**08.09.2016. DÇ-2018**
Azərbaycan - Norveç - 1:0 (Bakı)

**04.09.2017. DÇ-2018**
Azərbaycan - San Marino - 5:1 (Bakı)

**11.10.2018. ML-2019**
Farer adaları - Azərbaycan - 0:3 (Torshavn)

**17.11.2018. ML-2019**
Azərbaycan - Farer adaları - 2:0 (Bakı)

**08.09.2020. ML-2021**
Kipr - Azərbaycan - 0:1 (Nikosiya)

**13.06.2022. ML-2023**
Azərbaycan - Belarus - 2:0 (Bakı)

**22.09.2022. ML-2023**
Slovakiya – Azərbaycan – 1:2 (Trnava)

**25.09.2022. ML-2023**
Azərbaycan – Qazaxıstan – 3:0 (Bakı)

**13.10.2023. AÇ-2024**
Estoniya – Azərbaycan – 0:2 (Tallin)

**16.11.2023. AÇ-2024**
Azərbaycan – İsveç – 3:0 (Bakı)







2-0 Azərbaycan - Belarus, Millətlər Liqası, 13 İyun 2022



n - Isveç, Avropa Çempionatı, 16 Noyabr 2023 3-0

# AZƏRBAYCAN MİLLİSİNİN HEYƏTİ

## QAPIÇILAR/GOALKEEPERS
Şahrudin Məhəmmədəliyev
Aydın Bayramov
Rza Cəfərov
Səlahət Ağayev

## MÜDAFİƏÇİLƏR/DEFENDERS
Anton Krivotsyuk
Bəhlul Mustafazadə
Elvin Bədəlov
Bədavi Hüseynov
Rəhman Daşdəmirov
Abbas Hüseynov
Qismət Alıyev
Rüfət Abbasov
Elvin Cəfərquliyev

## YARIMMÜDAFİƏÇİLƏR/MIDFIELDERS
Emin Mahmudov
Mustafa Əhmədzadə
Səbuhi Abdullazadə
Abdulla Xaybullayev
Xəyal Əliyev
Toral Bayramov
Ceyhun Nuriyev
Rüstəm Əhmədzadə
Anatoli Nuriyev
Rüfət Abdullazadə

## HÜCUMÇULAR/FORWARDS
Renat Dadaşov
Mahir Emreli
Nəriman Axundzadə

## Azerbaijan national team squad

# MİLLİNİN SON 5 OYUNU

## LAST 5 MATCHES OF THE NATIONAL TEAM

| | | | | |
|---|---|---|---|---|
| 10.06.2025 | Yoldaşlıq görüşü | Azərbaycan - Macarıstan | 1:2 | Bakı, Azərbaycan |
| 05.09.2025 | DÇ-2026, seçmə mərhələ | İslandiya - Azərbaycan | 5:0 | Reykyavik, İslandiya |
| 09.09.2025 | DÇ-2026, seçmə mərhələ | Azərbaycan - Ukrayna | 1:1 | Bakı, Azərbaycan |
| 10.10.2025 | DÇ-2026, seçmə mərhələ | Fransa - Azərbaycan | 3:0 | Paris, Fransa |
| 13.10.2025 | DÇ-2026, seçmə mərhələ | Ukrayna - Azərbaycan | 2:1 | Krakov, Polşa |

# MİLLİNİN FIFA REYTİNQİ

## FIFA RANKING OF THE NATIONA TEAM

**HAZIRKI MÖVQEYİ:** *124-CÜ YER*
**ƏN YAXŞI MÖVQEYİ:** *73-CÜ YER (İYUL 2014-CÜ İL)*
**ƏN ZƏİF MÖVQEYİ:** *170-Cİ YER (İYUN 1994-CÜ İL)*

**CURRENT POSITION:** *124TH PLACE*
**BEST POSITION:** *73RD PLACE (JULY 2014)*
**LOWEST POSITION:** *170TH (JUNE 1994)*

INSIDE FIFA

# MÜNDƏRİCAT CONTENT


| | | |
|---|---|---|
| *FRANSA MİLLİ KOMANDASI* | 4 | *FRANCE NATIONAL TEAM* |
| MİLLİNİN BAŞ MƏŞQÇİSİ | 6 | ABOUT THE HEAD COACH |
| MİLLİNİN HEYƏTİ | 8 | ABOUT THE SQUAD |
| FRANSADA FUTBOLUN YARANDIĞI İL | 10 | THE YEAR FOOTBALL WAS ESTABLISHED IN FRANCE |
| MİLLİNİN REKORDÇULARI | 12 | THE RECORD HOLDERS OF THE NATIONAL TEAM |
| MİLLİNİN BEYNƏLXALQ YARIŞLARDA UĞURLARI | 15 | NATIONAL TEAM'S SUCCESSES IN INTERNATIONAL COMPETITIONS |
| MİLLİNİN SON 5 OYUNU VƏ FIFA REYTİNQİ | 18 | LAST 5 MATCHES AND FIFA RANKING OF THE NATIONAL TEAM |
| *ARALARINDAKI OYUNLAR HAQQINDA MƏLUMAT* | 20 | *INFORMATION ABOUT THE MATCHES HELD BETWEEN THE TEAM* |
| *MARAQLI FAKT* | 22 | *INTERESTING FACT* |
| *QRUP OYUNLARININ TƏQVİMİ* | 23 | *GROUP MATCHES SCHEDULE* |
| STADİON HAQQINDA | 26 | *INTEABOUT THE STADIUM* |
| *AZƏRBAYCAN MİLLİ KOMANDASI* | 28 | *AZERBAIJAN NATIONAL TEAM* |
| MİLLİNİN BAŞ MƏŞQÇİSİ | 32 | ABOUT THE HEAD COACH |
| AZƏRBAYCANDA FUTBOLUN YARANDIĞI İL | 36 | THE YEAR FOOTBALL WAS ESTABLISHED IN AZERBAIJAN |
| MİLLİNİN REKORDÇULARI | 40 | THE RECORD HOLDERS OF THE NATIONAL TEAM |
| MİLLİNİN BEYNƏLXALQ YARIŞLARDA QƏLƏBƏLƏRİ | 43 | NATIONAL TEAM'S SUCCESSES IN INTERNATIONAL COMPETITIONS |
| MİLLİNİN HEYƏTİ | 46 | ABOUT THE SQUAD |
| MİLLİNİN SON 5 OYUNU VƏ FIFA REYTİNQİ | 47 | LAST 5 MATCHES AND FIFA RANKING OF THE NATIONAL TEAM |


EUROPEAN QUALIFIERS